## Poeziyasından örnəklər

### Böyük eşq

Eşqlər var,
İnsanı dənizə bağlar.
İnsanı
dağlar.
Eşqlər var,
Yana-yana
İnsanı
İnsana bağlar.
Eşqlər var,
Zəhərdən acı,
Ama baş tacı.
Eşqlər var,
çeşid-çeşid.
Eşqlərin
kimisi böyük,
kimisi kiçik.
Ama Kərkükün eşqi
Həpsindən böyük.

### Ay havar

Mövsümlər dəyişikdir,
Kimi qış, kimi bahar.
İnsanlar başqa-başqa,
Kimi düşman, kimi yar.
Niyyətlər ayrı-ayrı,
Kimi şərəf, kimi ar.
Ürəklər çeşid-çeşid,
Kimi geniş, kimi dar.
Qadınlar şəkil-şəkil,
Kimi atəş, kimi qar.
Meyvələr rəngli-rəngli,
Kimi armud, kimi nar.
Ömürlər türlü-türlü,
Kimi ziyan, kimi kar.
Heyvanlar biçim-biçim,
Kimi quzu, kimi mar.
Bitkilər də rəngarəng,
Kimi çiçək, kimi xar.
Və dərdlər əskik olmaz,
Biri yoxsa, biri var.
Bu dünya çox əcayib,
Mən çaş qaldım, ay havar!

### Bizim köy

İllər... İllər öncə!
Şimşəkli bir gecə
Torpağı kiraç,
İnsanları füqara,
Heyvanı ac
Bir köydə doğuldum.
Adı Yengicə...
Yengicədə anam
Allahın hər axşamı
Ya... Yavan əkmək,
Ya... Soğan əkmək,
Ya... Ayran əkmək
İlə qarşılardı şamı.
Bu zalim... Bu zalim fələk
Kaç dəfə ağlattı anamı!
Ama hər şeyə rəğmən,
Bugün də... Bugün də...
Yengicədə körpə bəbəklər
Dil açarlar;
incədən... İncə
Qonuşmaya başlarlar
Öztürkçə.

### Kərkükü dinləyirəm

Aylardan nisan,
Mən qürbəttə bir insan,
Ta uzaqlardan
"Al ipək, yeşil ipək..."
Deyə, bir türkü duyuram.
Coşur damarlarımdakı qan,
"Qalanın dibində" imişəm kimi,
Kərkükü dinləyirəm.
Aylardan nisan,
Mövsüm bahar.
Yaylamızda Çərşəmbəsurdan iz var;
qarabuğdayı erkəklər,
Çiçək gözəli qızlar,
Yedi oğlan anası qadınlar görürəm.
Qafam darmadağın, halım yaman.
Mən qürbəttə bir insan,
Baxtıma ağlayıram.
Elimdən uzaq bir yerdə
Tutuldum tutulalı bu dərdə.
Dört mövsüm hər an
Babamın ocağını,
Anamın qucağını,
Şəhrimin bayrağını xatırlayıram...
Gözümdə tüstülənir oba həsrəti,
Söz bulanık, duman duman.
Mən uzakta bir insan,
Durmadan yanıram.
Hənüz gün işığı üfüklərə vurmadan
Bənnaları seyr edirəmş
Doyasıya iş başında
Kimisi yaşlı, kimisi on beş yaşında,
"Daş ver... Kiraç ver" səsləri arasında.
"Kərküküm fənər Kərkük" adlı
İçli bir xoyrat tutturulur.
Və arxasından yanık bir "Aman aman..."
Gözlərimi yumuram,
Mən zavallı bir insan,
Get-gedə soluram.
Daşkörpüyü kəmər-kəmər,
Quruçayı köpük-köpük,
Qapalı bazarı rəngarəng
Görəsim gəlir... Əbəs yerə!
Hani, bunlardan əsər yox belə!
Əkinlər susamış;
İstədiklərini alamırlar topraktan!
Çiçəklər qurumuş;
Kök sürəmir, su alamır çaydan
Susadım... Boğuluram...
Kimsənin xəbəri yox məhzunluğumdan
Mən talesiz bir insan,
Durmadan ağlayıram.
Yan Bayatlı! Yana bilirsən,
Tükənincəyədək yaşları gözünün
Əsirlik, dimdik heykəli köprünün
Ağlıma gəlir zaman-zaman;
İnim-inim inləyirəm.
Mən qürbəttə bir insan,
Kərkükü dinləyirəm.

### Anam Kərkük

Sürəkli məhzun bir şərqi tutturan,
İnsanda ən acı dərtlərini unutturan
Şəhrimin havasını sən bilməzsən.
Gün batımı bir başqadır orada,
Bir başqadır ağrı, sızlayan yarada
Qürbəttə xatirəsi gəldimi yada?
İnsanı yaxar, qavurar
Küllənməmiş bir qor misali.
Gecələri bir yanardağı andıran
Həsrət durmadan bağrımı yandıran
Anam Kərkükü,
canım Kərkükü sən bilməzsən!
Bilməzsən, dostum!
Yağmurun toprağa ilk düşüşünü
Onda seyr etməlisən;
Toprak nasıl, vətən nasıl qoxarmış,
Görməlisən... Görməlisən!
Duyulan hekayənin ən içlisidir
Gözəl şəhrimin hekayəsi.
Bu hekayəni qiyamətədək insanoğlu duymalı,
İçimi yiyirəm və deyirəm:
Bir cüt qanadım olmalı,
Oraya uçmalıyam, uçmalı.
Və məni, gözəl bir hekayəni
Yaxalayıp bir qəfəsə qoymalı!

### Geçmiş gün

Daha dün
Şəkər sözlü,
Siyah gözlü,
Bir çocukdun sən, Fatma!
Daha dün şəffafın bir tül qədər,
Tazəydin bir gül qədər.
Otlar gibi böyüdün,
Bir afət oldun, Fatma!
Daha dün məhəllədə bərabər
Hamam kulə yapardıq,
Gizlənqaç oynardıq.
Dönər mənə söylərdin:
"El-aləmə söz atma,
Get işivə, şər satma"
Nə kübardın sən, Fatma!



Əbdülxaliq Bayatlı Tərcümə etdi: Qəzənfər Paşayev